**UOT:94.(479.24).**

# ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEVİN MÜSTƏQİL AZƏRBAYCANA RƏHBƏRLİYİ DÖVRÜNDƏ GƏNCƏNİN İCTİMAİ-SİYASİ TƏRƏQQİSİ

***Mahmudov Asim Mahmud oğlu***
***Gəncə Dövlət Universiteti***
***Gceferova @rambler.ru***

**Xülasə:** *Tədqiqat işində Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət ümummilli lider cənab Heydər Əliyevin və onun layiqli varisi daxili siyasətdə, ictimai şüurda onun siyasi kursunu kompleks şəkildə davam etdirmək potensialına malik olan Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət, o cümlədən kadr siyasəti nəticəsində Respublikamızın digər bölgələrində olduğu kimi, Gəncə səhərində də siyasi vəziyyətin günü-gündən getdikcə yaxşılaşması öz əksini tapmışdır.*

**Aşar sözlər:** Heydər Əliyev və Gəncə, İctimai-siyasi tərəqqi, qurtuluş, Gəncə müstəqillik dövründə

**Key words***:* Heydar Aliyev and Ganja, public-political progress, salvation, Ganja during independence.

**Ключевые слова:** Гейдар Алиев и Гянджа, общественно-политическое развитие, спасение, Гянджа в период независимости

1985-ci ildən başlayaraq “yenidənqurma”, “aşkarlıq və demokratiya” bütün respublikada oldğu kimi, Gəncədə də çox mürəkkəb sosial-iqtisadi və ictimai-siyasi vəziyyət yaratmışdı. Erməni millətçilərinin sərsəm “Böyük Ermənistan” ideyasını həyata keçirmək üçün respublikanın ərazi bütövlüyünə qarşı yönəldilmiş təcavüzün, azərbaycanlıların Ermənistandan dədə-baba torpaqlarından kütləvi şəkildə qovulmasının, işgəncələrə məruz qalmasının respublikada doğurduğu etiraz hərəkatında gəncəlilər də fəal iştirak edirdilər. Mərkəzi, habelə yerli rəhbərlərin Azərbaycan Respublikasının konstitusiya hüquqlarının tapdanmasına qarşı təsirli əməli tədbirlər görməməsi, əksinə Moskvanın ermənipərəst siyasət yeritməsi əhalinin narazılığını gündən-günə artırırdı. Şəhərin erməni əhalısi köçüb getmişdi. Azərbaycan xalqının hüquqlqrını müdafiə etmək vəzifəsini yerinə yetirmədiyi üçün Gəncədəki sovet ordusu hissələrinin qarşısında piketlər, etiraz nümayişləri keçirilirdi. Partiya təşkilatı, Sovetlər nüfuzdan düşmüşdü. 1991-ci ildə yerli Sovetlər ləğv edilmiş, şəhərdə və onun rayonlarında icra hakimiyyəti başçıları vəzifəsi təsis olunmuşdu. Həmin ilin sentyabrında partiya və komsomol təşkilatları da öz fəaliyyətini dayandırmışdılar.

Şəhərdə tez-tez mitinqlər, nümayişlər, tətillər baş verirdi. “Aşkarlıq”, ”demokratiya”, uydurma “Qarabağ problemi” ilə əlaqədar yaranan, o zaman nüfuzlu siyasi təşkilat sayılan Azərbaycan xalq cəbhəsinin özəklərindən biri də Gəncədə idi. Bu təşkilat 1989- 1992 ci illərdə şəhərin ictimai- siyasi həyatında fəal rol oynayırdı. Sürətlə dərinləşən ümumi böhran, milli azadlıq hərəkətlərinin genişlənməsi nəticəsində sovet imperiyası süquta uğradı. 1991-ci il avqustun 30-da Azərbaycan Respublikası özünün dövlət müstəqilliyini elan etdi. Lakin Ermənistanın Azərbaycana qarşı elan olunmamış müharibəsi, daxildə hakimiyyət uğrunda nəhayətsiz çəkişmələr, ciddi siyasi qarşıdurmalar bu müstəqilliyi reallaşdırmağa imkan vermirdi.

AXC-nin mənəvi potensialı zəif idi. Bu, xüsusən 1992-ci ilin mayında respublikada AXC-nin liderlərinin hakimiyyətə gəlməsindən sonra icra hakimiyyəti aparatının səriştəsiz fəaliyyətində özünü açıqca göstərirdi. 1993-cü ilin aprel-iyun aylarında şəhərdə kütləvi mitinq və çıxışlar baş verirdi.

Gəncədə respublikada fəaliyyət göstərən digər ictimai-siyasi təşkilatların, o cümlədən AMİR, ASDR,YAP-ın şöbələri fəal iş aparırdı.

Azərbaycan Respublikasının öz müstəqilliyini bərpa etməsi, ərazisindən MDB-nin qoşunlarının çıxarılması ilə əlaqədar Gəncədəki hərbi hissə də 1993-cü ilin aprelində şəhəri tərk etdi.

Təcavüzkar erməni ordusunun 1993-cü ilin aprelində Ağdərə rayonunun bir hissəsini və Kəlbəcər rayonunu zəbt etməsi, Murov dağındakı mövqelərindən Gəncəni hədələməsi şəhərdə siyasi vəziyyəti daha da gərginləşdirmişdi. Belə bir vəziyyətdə Gəncədə polkovnik Surət Hüseynovun rəhbərliyi ilə bir qrup zabit "hərbi" birlik yaradaraq respublikanın ərazi bütövlüyünü qorumaq səlahiyyətini öz üzərinə götürdü. Şəhərdəki 709 №-li hərbi hissə ali baş komandanın ləğv olunaraq şəhəri tərk etmək haqqında əmrinə tabe olmadı. NDB qoşunu Gəncədən çixarkən silahlarının bir hissəsini onlara vermişdi. İyunun 4-də bu hissə ilə hökumətin silsahlı qüvvələri arasında qanlı toqquşma baş verdi Nəticədə 20 nəfər öldürüldü (o cümlədən şəhər sakinləri), 56 nəfərdən çox adam yaralandı. Şəhərdə AXC üzvlərinin rəhbər olduğu bütün idarə orqanları ələ keçirildi. İcra hakimiyyəti başçısı dəyişdirildi.

Ölkənin qabaqcıl adamları, ziyalılar, sadə əməkçilər böyük fəlakətin yaxınlaşdığını hiss edirdilər. Respublikanın müstəqilliyini əlindən almaq istəyən nüfuzlu imperiyapərəst qüvvələr, onların yerli əlaltıları iqtidarın fərasətsizliyindən məharətlə istifadə edib ölkəni parçalamağa, vətəndaş müharibəsi törətməyə çalışdıqları vaxt xalqın sağlam qüvvələrinə arxalanan Qurtuluş hərəkatı meydana gəlir və sürətlə genişlənirdi. Bu hərəkat zamanın böyük siyasətçisi Heydər Əliyevin ətrfında formalaşırdı.

Xalqın nümayəndələri, qabaqcıl ziyalılar dəfələrlə Naxçıvana, onun yanına gedib, yenidən böyük siyasətə qayıtmasını xahiş etmişdilər. 1992-ci il oktyabrın 16-da Azərbaycanın 91 nəfər ən nüfuzlu ziyalısı – alimlər, müəllimlər, jurnalistlər, hüquqşünaslar, həkimlər, əmək adamları, siyasətçilər "Səs" qəzeti vasitəsilə H.Əliyevə bu xahişlə rəsmi müraciət etdilər. Yeni Azərbaycan uğrunda siyasi hərəkət genişləndi. Heydər Əliyevin rəhbərliyi ilə 1992-ci il noyabrın 21-də Naxçıvanda "Yeni Azərbaycan Partiyası" (YAP) təşkil edildi.

Azərbaycanın görkəmli oğlu, alovlu vətənpərvər Heydər Əliyev xalqın bu ağır günündə, şübhəsiz, kənardan baxa bilməzdi. O, xalqin və respublika hakim dairələrinin dəfələrlə təkidli dəvətini qəbul edib iyunun 9-da Bakıya gəldi. Bütün Azərbaycan xalqı bu gəlişi böyük ümid və sevinclə qarşıladı.

Heydər Əliyev Azərbaycanda vətəndaş müharibəsini dayandırmaq üçün ağıllı, düşünülmüş siyasi manevrlər etdi. Gəncədə danışıqlar aparıb hərbi müxalifəti neytrallaşdırdı. 1993-cü il iyunun 15-də Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Bu gün tarixə "Milli Qurtuluş günü" kimi daxil oldu. Xalqın tələbi ilə Milli Məclis 1997-ci ilin iyununda bu gunü bayram elan etdi.

1994-cü ilin mayında Ayaz Mütəllibov Dərbəndə gəlib "sadval"çılarla görüşüb məsləhətləşmişdi. Bu vaxt S.Hüseynov Yevlaxda və Gəncədə öz əlaltıları ilə müşavirlər keçirmiş, çevrilişə hazırlıq tədbirləri müzakirə etmişdi.

Oktyabrın 4-də Gəncədə S.Hüseynovun tərəfdarları olan 300-ə yaxın silahlı adam şəhər icra hakimiyyətinin binasını və digər strateji obyekləri ələ keçirdi. Həmin gecə Bakıda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident aparatı, Ali Sovet və Müdafiə Nzirliyi binalarına tuşlayıb əmrə müntəzir dayanmışdılar. Oktyabrın 4-dən 5-nə keçən gecə prezident Heydər Əliyev müstəqil Azərbaycanın dövlətçiliyini müdafiə etmək üçün radio və televiziya ilə xalqa müraciət etdi. Heydər Əliyevin çağırışı ilə gecə yarısı qısa bir vaxtda on minlərlə adam Prezident sarayı qarşısına toplaşdı. Prezidentin həyata keçirdiyi tədbirlər qiyamçıların qüvvələrini birləşməyə qoymadı. Vəziyyətin dəyişdiyini görən Cavadov qardaşları yalandan prezidenti müdafiə etdiklərini bildirdilər. Gəncədə də qiyam yatırıldı. Oktyabrın 5-də Bakının "Azadlıq" meydanında ümumxalq mitinqi oldu. Xalq qanuni prezidenti müstəqilliyin qarantı kimi dəstəklədiyini bir daha nümayiş etdirdi.

Gəncə şəhərinin sosial-iqtisadi inkişafı ilə daim maraqlanan Heydər Əliyev 1998-ci il oktyabrın 7-də Gəncə seçiciləri ilə görüşdükdən sonra əhalinin rifah halının daha da

yaxşılaşdırılması ilə bağlı bir sıra ciddi tapşırıqlar verdi. Bu tapşırıqlardan sonra, görülən tədbirlərdən biri də Gəncə şəhərinə yenidən təbii qazın verilməsi oldu.

Heydər Əliyevin Gəncə şəhərinə 2000-ci ilin may ayında tarixi səfəri zamanı şəhərin iqtisadi inkişafı və əhalisinin sosial problemlərinin həll edilməsi istiqamətində yeni göstərişlər verdi.

Ölkə başçısı Heydər Əliyev 2000-ci ilin may ayında Gəncəyə səfəri zamanı öz gəlişinin məqsədini belə açıqlamışdır: «…Gəncədə mənim məqsədim məhz Gəncənin problemləri ilə daha da yaxından tanış olmaq, şəhərin həyatındakı çətinliklərin aradan qldırılması üçün mühüm olan tədbirləri həyata keçirmək və bu ağır, çətin dövrdə Gəncə şəhərinin sosial-iqtisadi inkişafı üçün lazımi işlər görməkdən ibarətdir». (4)

Heydər Əliyev 2002-ci ilin sentyabrında Gəncə şəhərində çıxışında ötən iki il ərzində Gəncə şəhərində görülən işləri belə qiymətləndirmişdir: «Mən 2000-ci ildə Gəncəyə gəlmişdim...mən şəhər icra hakimiyyətində konkret məsələləri müzakirə etdim və tapşırıqlar verdim. Məmnunam ki, bu tapşırıqların bir çoxu artıq yerinə yetirilir...mənə deyiblər ki, enerji təchizatı sahəsində çox işlər görülübdür. Yaxud Gəncənin qazla təminatı sahəsində o vaxtdan sonra çox iş görülübdür. Yaxud da özəlləşdirmə sahəsində...Bəzi müəssisələr indiyə qədər dayanıb, yaxşı işləmir, o müəssisələrin fəaliyyətini təmin etmək sahəsində, məsələn, aliminium oksidi kombinatı neçə illərdir ki, müxtəlif problemlər yaradırdı. İndi mənə məlumat verirlər ki, Hollandiyanın bir firmasına icarəyə verilibdir və artıq orada işlər normal vəziyyətə düşübdür. Deyirlər ki, orada təxminən 2900 nəfər adam çalışır. Amma bu hələ azdır. Bundan da çox işlər görülməlidir...» (5).

Prezident Heydər Əliyev Gəncəyə səfəri zamanı bəzi sahələrdə müşahidə etdiyi çatışmazlıqlarla bağlı narahatlığını bildirmişdir: «Gəncənin rəhbərliyi – həm şəhər rəhbərliyi, həm də Gəncədəki iki rayon rəhbərləri yerli imkanlardan daha da səmərəli istifadə etməlidirlər. Yerli imkanlar az deyildir.Yenə də deyirəm, biz bazar iqtisadiyyatına keçmişik. Gəncədə çox obyektlər özəlləşdirilib, özəl sektor inkişaf edir. Amma Gəncənin rəhbərliyi, həm şəhər, həm də rayonların rəhbərləri, yerli imkanlardan lazımi qədər istifadə etmirlər» (6).

Ümumiyyətlə, Azərbaycan xalqının böyük oğlu, dahi şəxsiyyət Ümummilli lider Heydər Əliyevin həyata keçirdiyi uğurlu siyasət, o cümlədən kadr siyasəti nəticəsində respublikamızın digər bölgələri kimi, Gəncə şəhəri də 1993-2003-cü illərdə nəzərə çarpacaq dərəcədə inkişaf etmiş, abadlaşmış və öz tarixinin şərəfli dövrlərindən birini yaşamışdır.

***Ədəbiyyat***

1. Azərbaycan tarixi.Yeddi cilddə.VII cild (1941-2002-ci illər). Bakı,”Elm” 2008, 608 səh. +80 səh. İllüstrasiya.
2. Gəncə şəhərinin tarixi: elmi praktik konfransın materialları. Bakı, 2004.
3. XX əsr Azərbaycan tarixi. II c/ Ali məktəblər üçün dərslik. Bakı, Çaşıoğlu, 2004, 558 səh.
4. “Azərbaycan” qəzeti, 30 may 2000-ci il (№120 (2531)).
5. “Azərbaycan” qəzeti,13 sentyabr 2002-ci il (211 (3223)).
6. “Azərbaycan” qəzeti, 14 sentyabr 2002-ci il (212 (3224)).
7. “Azərbaycan” qəzeti, 15 sentyabr 2002-ci il (213 (3225)).
8. “Şərq qapısı” qəzeti, 16 iyun 1993-cü il.

## PUBLIC- POLITICAL PROGRESS OF GANJA DURING THE NATIONAL LIEDER HEYDAR ALIYEV'S LEADERSHIP INDEPENDENT AZERBAIJAN REPUBLIC

***Mahmudov Asim Mahmud oglu***

***Summary***

İn the research the day by day political development of Ganja city the a mann of worth of National Leader Heydar Aliyev's internal and foreign affairs of Azerbaijan political situation who carried with complex and honor President of Azerbaijan Mr Ilham Aliyev.

## ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКОЕ РАЗВИТИЕ ГЯНДЖИ ПЕРИОД ПРАВЛЕНИЯ ОБЩЕ-НАЦИОНАЛЬНОГО ЛИДЕРА ГЕЙДАРА АЛИЕВА В НЕЗАВИСИМОСТИ АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ

***Махмудов Асим Махмуд оглы***

***Резюме***

Исследование общественного развития города Гянджи в резултате ведения правильной внутренней и внешней общественной ситуации национальным лидером Гейдаром Алиевым и его почётным продолжителем президентом Ильхамам Алиевым.

***Rəyçi: dosent Aslanova Emma***
***Azərbaycan tarixi kafedrasının 16 sentyabr 2021-ci il tarixli iclasın o1 saylı protokolu***
***Daxil olma tarixi 17 sentyabr 2021-ci il***

**UOT:82.**

## BALZAKIN YARADICILIĞINDA BURJUA CƏMİYYƏTİNİN İFŞASI

***b.m. Musayeva Kafiyə Rəşid qızı***
***Gəncə Dövlət Universiteti***
***Gceferova@rambler.ru***

**Xülasə:***Balzakın realizmi XIX əsr Qərb tənqidi realizminin zirvəsi olduğu kimi, onun ədəbi-nəzəri müddəaları da həmin dövrdə Qərbin estetik fikrində ən yüksək nailiyyət olmuşdur. Balzak öz nəzəri mülahizələrində maarifçiliklə hələ əlaqəsini kəsməmişdi. Maarifçilər sənəti ictimai vəzifələrdən kənar hesab etmirdilər, Balzak da onlar kimi, sənətin ictimai mahiyyət daşıdığını təsdiq edir. Balzakın fikrinə görə, sənətin vəzifəsi insana və insanlığa xidmət etmək deməkdir. Sənət hər bir dövrdə insan zəkasının əldə etdiyi nailiyyətlər səviyyəsinə yüksəlməlidir. Balzak qeyd edir: «Sənətkar öz qəlbindən bütün kainatı əks etdirəcək bir ayna yaradan insandır» («Sənətkarlar haqqında» adlı məqalə). Sənətkar şəxsi istək və arzularından yüksəkdə dayanmalıdır, çünki sənətkar özünə deyil, xalqa məxsusdur. Balzakın fikrinə görə, dahiliyin əzəməti onun istedadının dünyaya nə dərəcədə hakim olması ilə təyin edilməlidir. İstedadın hakimiyyəti bütün başqa hakimiyyətlərdən qüvvətlidir.*

*Balzakın əsərləri həcm etibarı ilə olduqca böyükdür. Hələ ilk əsərlərinin sayı son dərəcə çoxdur. Balzak bu əsərlərini təxəllüslər ilə çap etdirmiş və sonralar onların çoxundan imtina etmişdir. Ancaq bu əsərlər üzərində dayanmaq lazımdır, çünki bunlar onun əsas yaradıcılıq məhsulu olan «Bəşəri komediya»na hansı yollarla gəlib çıxması haqqında təsəvvür yaradır.*

**Açar sözləri:** yaradıcılıq, əsər, ictimai, burjua, cəmiyyət, qəhrəman, tənqid.

**Ключевые слова:** творчество, работа, общественность, буржуазия, общество, герой, критика.

**Key words:** creativity, work, public, bourgeois, society, hero, criticism